# DİSTANT DƏRSİN QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARI

Distant dərs meyarlar üzrə aşağıdakı vahidlərlə qiymətləndirilir:

(1)- Meyar əhatə olunmayıb;
(2)- Meyar qismən əhatə olunub;
(3)- Meyar tam əhatə olunub

| Qiymətləndirmə meyarları | (1) | (2) | (3) |
|---|---|---|---|
| **Planlaşdırma** | | | |
| ▪ Distant dərsi Virtual məktəb platformasının Microsoft Teams proqramında kalendar bölməsində planlaşdırır. | | | |
| ▪ Şagirdlər distant dərsə dəvət olunur. | | | |
| ▪ Distant dərsi sinxron və asinxron olaraq planlaşdırır. | | | |
| ▪ Distant dərs üçün kanal yaradır. | | | |
| ▪ Distant dərsin asinxron tədrisi üçün yaratdığı kanalda resurslar (*audio, video resurslar, e-dərslik portalına, teledərslərə inteqrasiya, sərbəst iş üçün tapşırıq nümunələri və s*) yerləşdirir. | | | |
| ▪ Distant dərsin sinxron tədrisi üçün resursları (*öyrənilən yeni mövzu üzrə materiallar*) Microsoft Teams proqramının fayl bölməsində yerləşdirir. | | | |
| ***Qeyd:*** | | | |
| **Distant dərsin təşkili və gedişi** | | | |
| ▪ Virtual sinif otağını tədris prosesinə (*Microsoft Teams proqramından kalendar bölməsindəki planlaşdırmaya uyğun olaraq*) hazırlayır | | | |
| ▪ Şagirdlərin dərsdə iştirakını yoxlayır. | | | |
| ▪ Virtual sinif otağındakı qaydaları təkrarlamaqla və ya şagirdlərə tərarlatmaqla həmin qaydalara onların diqqətini yönləndirir. | | | |
| ▪ Müəllim asinxron dərsdə şagirdlərin fəallığını təmin etmək üçün onları fəaliyyətə həvəsləndirir, stimullaşdırır. | | | |
| ▪ Sinxron dərsdə şagirdləri fəaliyyətə motivasiya (yeni informasiya, tapşırıqlar və s) edir. | | | |
| ▪ Asinxron dərsin məqsədinə uyğun olaraq (*yeni mövzunun izahı üzrə teledərs və ya video/audio izah, öyrənilənlərin möhkəmləndirilməsi üçün sərbəst iş və s.*) vaxt müəyyən edilir. | | | |
| ▪ Sinxron dərsdə sistemlilik, əlaqəlilik, davamlılıq və məntiqi ardıcıllıq gözlənilir. | | | |
| ▪ Sinxron dərsdə müəllim-şagird, şagird-şagird münasibətləri yaradır. | | | |
| ▪ Sinxron dərsdə müəllim şagirdləri qrup, cüt, fərdi və kollektiv işlərə cəlb etməklə qarşılıqlı əməkdaşlıq və əks-əlaqə yaradan fəaliyyətə cəlb edir, virtual ünsiyyət qaydalarını təmin edir. | | | |
| ***Qeyd:*** | | | |
| **Distant/sinxron dərsdə müəllimin rolu** | | | |
| ▪ Müəllim dərsə psixoloji hazırdı (*Psixoloji durumu, əhvalı, enerjililiyi, qətiyyətliliyi, həyacanlılığı və s.).* | | | |

| | | | |
|---|---|---|---|
| ▪ Müəllim prosesi sistemli, ardıcıl idarə edir (*Mövzu üzrə şagirdlərin ilkin biliklərini müəyyənləşdirir, düşündürücü suallarla onları problemin həllinə yönəldir, prosesləri əlaqələndirir, dərketmələrini yoxlayır, əks-əlaqə yaratmaqla şagirdləri birgə fəaliyyətə, əməkdaşlığa cəlb edir və s.).* | | | |
| ▪ Müəllim dərsdə sual və cavabları mümkün qədər qısa, lakonik və şagirdlərin səviyyəsinə uyğun söyləyir. | | | |
| ▪ Müəllim şagirdlərin potensial imkanlarını nəzərə almaqla onlara bərabər imkanlar yaradır. | | | |
| ▪ Dərsdə şagirdlərin irəliləyişini qeyd edir, dəyərləndirir, onları fəaliyyətə stimullaşdırır. | | | |
| ▪ Dərsdə sağlam psixoloji mühiti təşkil edir *(müəllimin xeyirxah münasibəti, şagirdlərə hörmət və etibarı, onların bacarığına inamı*). | | | |
| ▪ Müəllim dərsdə müxtəlif veb-əsaslı resurslardan istifadə edir. | | | |
| ▪ Müəllim dərsdə Virtual Məktəb platformasının imkanlarından sərbəst istifadə edir. | | | |
| ▪ Müəllim dərsdə şagirdləri Virtual Məktəb platformasının imkanlarından istifadəyə təhrik edir. | | | |
| ***Qeyd:*** | | | |
| **Distant dərsdə qiymətləndirmə** | | | |
| ▪ Müəllim distant asinxron/sinxron dərsdə şagirdlərin fəaliyyətini müşahidə edir və qeydə alır. | | | |
| ▪ Müəllim distant asinxron/sinxron dərsdə hər bir şagirdə özünənəzarət və özünütəhlil imkanları yaradır. | | | |
| ▪ Distant asinxron/sinxron dərsdə geridə qalan (*mövzunun öyrənilməsində çətinlik çəkən*) şagirdlərə stimullaşdırıcı istiqamətlər verir. | | | |
| ▪ Distant sinxron dərsdə şagirdlərin fəaliyyətini yekun qiymətləndirir (*meyarlarla, həvəsləndirici, rəğbətləndirici vasitələrlə və s.).* | | | |
| ***Qeyd:*** | | | |